# Yeni siyasi xəritənin dayaq nöqtəsi



**Azərbaycanın dövlətçilik tarixinin şərəfli səhifələrindən olan 28 May - Müstəqillik Günü bu il həm rəmzi, həm də strateji baxımdan əlamətdar hadisə ilə yadda qaldı. İşğaldan azad olunmuş ərazilərdə - Şərqi Zəngəzurun strateji mərkəzində yerləşən Laçında ölkənin doqquzuncu, Qarabağın isə sayca üçüncü beynəlxalq hava limanı - Laçın Beynəlxalq Hava Limanı təntənəli şəkildə istifadəyə verildi. Bu Azərbaycan dövlətçiliyinin siyasi və iqtisadi suverenliyinin, regional gücə çevrilməsinin bariz təcəssümüdür.**

Hava limanının fəaliyyəti yalnız ölkədaxili nəqliyyat və logistika imkanlarını genişləndirmir, həm də regionun təhlükəsizlik arxitekturasında yeni güc mərkəzinin formalaşdırır. Məhz bu səbəbdən dünyanın aparıcı siyasi və hərbi təhlil mərkəzləri Laçında baş verənləri diqqətlə izləyir və analiz edirlər. Laçın Hava Limanının açılışından dərhal sonra şəhər daha bir mühüm tarixi hadisəyə şahidlik etdi. Azərbaycan-Türkiyə-Pakistan Zirvə Görüşü üç qardaş ölkə arasında strateji geosiyasi ittifaqın təsis olunduğunu nümayiş etdirdi. Dövlət başçısı İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə reallaşan görüş yeni dünya düzənində alternativ güc blokunun təməlini qoydu.

Bu ittifaq konkret iqtisadi layihələr, təhlükəsizlik təşəbbüsləri və beynəlxalq hüquqa əsaslanan ədalətli mövqelərlə müşayiət olunur. Prezident İlham Əliyev Zirvə görüşündə çıxışında açıq şəkildə bəyan etdi ki, Azərbaycan, Türkiyə və Pakistan yalnız regionda deyil, həm də beynəlxalq müstəvidə ədalət, suverenlik və ərazi bütövlüyü prinsiplərinə sadiq olan güclərdir: "Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik". Dövlət başçısının çıxışı əslində, beynəlxalq hüquqa qarşı selektiv yanaşma sergiləyən Qərb institutlarına ünvanlanmış ciddi siyasi çağırış idi.

Zirvə görüşündə Kəşmir, Qarabağ və Şimali Kipr məsələlərində qarşılıqlı dəstək bəyanatları verildi. Bu, həm də Hindistan-Pakistan münasibətlərində dialoqun təşviqi, BMT qətnamələrinə əsaslanan yanaşmaların aktuallığının bir daha vurğulanması demək idi. Beləliklə, Laçın Zirvəsi beynəlxalq hüquqa əsaslanan alternativ diplomatiyanın ilk konturlarını cızdı.

Görüşün əsas gündəm mövzularından biri də iqtisadi əlaqələr və investisiya imkanlarının genişləndirilməsi oldu. Prezident İlham Əliyev konkret rəqəmlərlə bəyan etdi ki, Azərbaycan artıq Türkiyəyə 20 milyard ABŞ dollarından çox sərmayə yatırıb. Pakistan isə növbəti hədəf kimi müəyyən olunub - 2 milyard dollarlıq investisiya planları artıq masadadır. Bu strateji iqtisadi koordinasiyanın bariz nümunəsidir. Energetika, nəqliyyat, kənd təsərrüfatı, müdafiə sənayesi, informasiya texnologiyaları və logistika sahələrində konkret layihələr üzrə işlər gedir. Üçlüyün həmrəyliyi Cənubi Qafqazda iqtisadi güc balansını dəyişmək potensialına sahibdir.

Orta Dəhliz və Şimal-Cənub Nəqliyyat Dəhlizi layihələrinin müzakirəsi isə qlobal logistik şəbəkənin əsas oyunçularından biri kimi Azərbaycanı ön plana çıxardı. Orta Dəhliz - Çindən Avropaya uzanan, Sakit okeanla Atlantik okeanı birləşdirən alternativ İpək Yoludur. Bu, həm də geosiyasi nəzarət zolağı deməkdir. Azərbaycan dəhlizlərin mərkəzində dayanan ölkə kimi Türkiyə və Pakistanla koordinasiyalı şəkildə marşrutların təhlükəsizliyini və səmərəliliyini təmin etməklə, ticarətin liberallaşmasına və regionun geoiqtisadi çəkisinin artmasına xidmət edir. Bu isə bütövlükdə regionda yeni güc balansının - Qlobal cənub cəbhəsinin formalaşması deməkdir.

Zirvə görüşündə təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilməsi və müdafiə sənayesi üzrə əməkdaşlıq mexanizmlərinin qurulması, Azərbaycan-Türkiyə-Pakistan üçlüyünün yeni regional təhlükəsizlik arxitekturası qurmaq niyyətində olduğunu göstərdi. Dünya düzəni dəyişir, NATO və digər beynəlxalq təhlükəsizlik alyansları əvvəlki effektivliyini itirir. Belə bir vaxtda bu üç ölkənin birliyi həm öz suverenliklərinin təminatçısı, həm də bölgədə sülhün və sabitliyin əsas dayağı rolunu oynayır.

Laçında keçirilən görüş məkanın simvolik məna yükünü kökündən dəyişdi. Dünənə qədər işğal altında olan, xarabalığa çevrilmiş Laçın bu gün beynəlxalq siyasi gündəmin mərkəzinə çevrilib. Görüş alternativ qlobal diplomatiyanın başlanğıc nöqtəsi oldu. Bu səbəbdən də Laçından verilən siyasi mesajları, səslənən bəyanatları və imzalanan razılaşmaları yeni dövrün siyasi bəyannaməsi kimi oxumaq lazımdır. Artıq dünya düzənində yeni bir güc xətti çəkilib - Bakı-Ankara-İslamabad. Bu xətt təkcə coğrafi deyil, həm də mənəvi, siyasi, iqtisadi və təhlükəsizlik baxımından gələcəyin alternativ beynəlxalq nizamını formalaşdıracaq.

**Tacir SADIQOV,**
**"Respublika".**

Respublika .- 2025.- 3 iyun (№ 114).- S.14.